**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

***Əlyazması hüququnda***

**TƏRANƏ NƏSİMİ qızı QULUZADƏ**

# QƏHRƏMANLIQ DASTANLARINDA AZƏRBAYCAN ETNOQRAFİYASININ ƏKSİ

**5102.01- Etnoqrafiya və etnologiya**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı-2016**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun Tarixi etnoqrafiya şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **Teymur Əmiraslan oğlu Bünyadov**
*AMEA-nın həqiqi üzvü,*
*tarix üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər**: **Fəzail İmran oğlu Vəliyev**
*tarix üzrə elmlər doktoru*

**Mahmud Qara oğlu Allahmanlı**
filologiya üzrə elmlər doktoru

**Aparıcı elmi müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin „Ümumi tarix kafedrası"

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində fəaliyyət göstərən tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün (5102.01- Etnoqrafiya və etnologiya) dissertasiyaların müdafiəsini keçirən FD 01.171 Dissertasiya Şurasının "____" __________ 2016-cı il tarixli iclasında saat " ___"-da keçiriləcəkdir.

**Ünvan: Az.1143, Bakı şəhəri, H.Cavid prospekti 115.**

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " ___ " ___________2016-cı ildə göndərilmişdir.

**FD 01.171**
**Dissertasiya Şurasının**
**elmi katibi:** **Səfər Hüseyn oğlu Aşurov**
*tarix üzrə fəlsəfə doktoru*

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Qəhrəmanlıq dastanları Azərbaycan xalqının mənəvi mədəniyyətinin formalaşmasında mühüm rol oynayan şifahi xalq yaradıcılığının ayrılmaz tərkib hissəsidir. Dastanların Azərbaycan xalqının milli yaddaşının qorunub-saxlanılmasında, nəsildən-nəslə ötürülməsində əvəzsiz rolu vardır. Tarixin keşməkeşli dövrlərində azərbaycanlılar dastanların ovqatına köklənmiş, ata-babalarımızın qəhrəmanlıqları ilə ruhlanmış, vətən uğrunda mübarizəyə qalxmışlar.

Milli oyanış, etnik özünüdərkin indiki mərhələsi qəhrəmanlıq dastanlarının etnoqrafik cəhətdən öyrənilməsini zəruri edən şərtlərdəndir. Tarixi-etnoqrafik mənbə rolunu oynayan dastanlar etnik-mədəni varisliyi və milli yaddaşı qorumağa, etnogenez problemininin bir çox aspektlərini öyrənməyə imkan verir. Bu şifahi xalq yaradıcılığı nümunələri xalqımızın həyat tərzi və yaşam dünyasını əks etdirməklə yanaşı, baş verən dəyişikliklər nəticəsində itmiş və ya itməkdə olan mədəniyyət elementlərinin aşkar olunmasını da təmin edir. Dastanların öyrənilməsi nəticəsində nəsillərarası etnogenetik əlaqələr müəyyən mənada bərpa olunur, ayrı-ayrı tarixi dövrlərin etnoqrafik mənzərəsini əks etdirən yeni materiallar əldə edilir. Nəhayət, məhəbbət və məişət dastanları kimi, qəhrəmanlıq dastanları da xalqımızın təsərrüfat həyatının, adət-ənənələrinin, maddi və mənəvi mədəniyyətinin, ailə məişətinin və s. öyrənilməsi üçün əvəzsiz mənbə kimi çıxış edir.

Azərbaycan xalqının tarixi-mədəni irsini, o cümlədən "Dədə Qorqud kitabı" eposunu yüksək qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev demişdir: "Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsini tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə yaza bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir"[1]. Həqiqətən də, xalq dastanlarının tədqiqi və təbliği tarixi, mifoloji və etnoqrafik yaddaşımızı dirçəltməklə yanaşı, gənc nəslin vətənpərvərlik

[1] Əliyev H.Ə. Milli varlığımızın mötəbər qaynağı. / Dədə Qorqud dünyası Məqalələr. Bakı: Öndər, 2004, s. 7

ruhunda tərbiyə olunmasına, qəhrəmanlıq hisslərinin aşılanmasına kömək edir.

Qəhrəmanlıq dastanlarımız hər hansı bir yazıçının bədii təfəkkürünün məhsulu olan əsərlərdən fərqli olaraq, konkret bir dövrü deyil, xronoloji baxımdan uzun bir zaman kəsiyini əhatə edir. Şifahi xalq ədəbiyyatımızın şah əsəri olan "Kitabi-Dədə Qorqud" dastanı"ndan başlamış XIX – XX əsrin əvvəllərində yaranmış qəhrəmanlıq dastanlarına qədərki min-min beş yüz ildən artıq tarixi əhatə edən dastanlar bu dövr ərzində gedən mədəni-məişət proseslərini, maddi və mənəvi mədəniyyətin müxtəlif sahələrini, etik-mədəni varisliyi öyrənməyə imkan verir.

Onu da qeyd edək ki, Azərbaycan qəhrəmanlıq dastanları ədəbiyyatşünaslıq və folklorşünaslıq baxımından kifayət qədər geniş tədqiq olunmuşdur. Belə ki, hələ XIX əsrdə "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanları Qərbi Avropa və Rusiya alimlərinin diqqətini cəlb etmiş, bəzi boylar, qollar tərcümə və nəşr edilərək tədqiqatçıların maraq dairəsinə düşmüşdür.

Azərbaycan dastanları haqqında görkəmli şərqşünas alimlər – V.V.Bartold, İ.İ.Kraçkovski, E.Rossi, A.Q.Tumanski, K.A.İnostransev, A.J.Yakubovski, V.M.Jirmunski geniş elmi-tədqiqat işləri aparmışlar. "Kitabi-Dədə Qorqud"un Azərbaycanda 1920-ci illərin axırlarında A.Musaxanlı, İ.Hikmət, Ə.Abid və başqa görkəmli alimlərin səyi ilə başlanan tədqiqi bir çox süni maneələrlə, hətta təzyiqlərlə müşayiət olunmuşdur. Ədəbiyyatımızın fədakar araşdırıcılarının "xalq düşməni" adlandırılması, sonradan isə eposun özünün xalqa zidd, zərərli bir abidə kimi kənara atılması ana kitabımıza olan münasibətin təzahürü idi. Lakin bütün qadağa və məhrumiyyətlərə baxmayaraq, 1930-1940-cı illərdə H.Araslı, M.H.Təhmasib, Ə.Dəmirçizadə və başqa görkəmli alimlərin təmsil etdiyi Azərbaycan qorqudşünaslığı sələflərinin başladığı işi ləyaqətlə davam etdirmiş, eposun Azərbaycan ədəbiyyatı tarixində yaşamasına, orta və ali məktəblərdə tədrisinə nail olmuşlar.

XX əsrin 50-ci illərinin əvvəllərində "Dədə Qorqud kitabı"un Azərbaycanda və bütövlükdə sovet türkologiyasında öyrənilməsi yasaq olunsa da, dünya ədəbiyyatşünaslığında onun tədqiqi davam etdirildi. Xüsusilə Türkiyədə bu dəyərli ədəbi-tarixi abidənin tədqiqi daha da intensiv şəkil aldı. Həmin illərdə, konkret desək, 1952-ci ildə İtaliya şərqşünası E.Ronni hazırda dastanın "Vatikan nüsxəsi" adlanan yeni variantını aşkar etdi. XX əsrin 50-ci illərinin ortalarında şəxsiyyətə pərəstişin aradan qalxması ilə "Dədə Qorqud Kitabı" üzərindəki yasaq da

götürüldü. Bundan sonra Həmid Araslı, Əbdüləzəl Dəmirçizadə və Əli Sultanlının qiymətli tədqiqatları ulu "Kitab"ımıza dönüşün güclü başlanğıcı oldu. Daha sonra Şamil Cəmşidov, Samət Əlizadə və başqaları meydana çıxdı. Onların ardınca isə bütöv bir qorqudşünaslar nəsli yetişdi və bununla da Azərbaycanda bu möhtəşəm ədəbi abidənin tədqiqi böyük vüsət aldı.

"Dədə Qorqud kitabı"nın davamlı tədqiqində xalqımızın Ümummilli lideri, Azərbaycan Respublikanın Prezidenti Heydər Əliyevin abidənin 1300 illik yubileyinin keçirilməsi ilə bağlı 1997-ci il 27 fevral tarixli fərmanı ilə yeni mərhələ başlandı. Həmin fərmandan 2000-ci ilin 8 aprel tarixli yubiley təntənəsinə qədər olan müddətdə dastan çox sürətlə öyrənildi və qiymətli monoqrafik, ensiklopedik əsərlər, saysız-hesabsız qəzet-jurnal məqalələri, toplular, silsilə məruzə və tezislər çap olundu ki, bunlar da miqyasına görə abidənin öyrənilməyə başladığı dövrdən üzü bəri 180 il ərzində aparılan araşdırmaların sayına çatırdı.

2013-cü il dekabrın 13-də Bakının Nərimanov rayonunda ucaldılan "Kitabi-Dədə Qorqud" abidəsinin və "Dədə Qorqud" parkının açılışı oldu. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edərək qeyd etdi ki "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalq ədəbiyyatının yazılı abidəsidir. Bu dastan hər bir azərbaycanlı üçün əzizdir. Bu gün bu abidənin ucaldılması Azərbaycan xalqının bir daha öz tarixi keçmişinə, mədəniyyətinə olan münasibətinin təzahürüdür...".

Qəhrəmanlıq dastanlarımızın öyrənilməsi, tədqiqi xalqımızın həyatında unudulmuş, sıradan çıxmış bir çox adət-ənənələrini bərpa etməyə, eyni zamanda qədim və müasir adət-ənənələri müqayisəli öyrənməyə imkan verir. Bu qiymətli mənəvi irsin kökü "Dədə Qorqud kitabı" eposu ilə bağlıdır. Obrazlı şəkildə desək, "Dədə Qorqud kitabı" gövdəsində müxtəlif meyvə calaqları yetirən nəhəng bir ağac – mükəmməl sinkretik tarixi sənəd, salnamə (oğuzun tarixi) və bədii əsərdir, şifahi yaradıcılıq nümunəsi və yazılı ədəbiyyatdır. Dastanların ana süjeti məhəbbət və qəhrəmanlıq motivləri əsas götürülməklə iki hissəyə ayrılır. Belə ki, qəhrəmanlıq dastanında məhəbbət mövzusunun, məhəbbət dastanında isə qəhrəmanlıq motivlərinin mövcudluğu tamamilə təbiidir. Nəzərə alınmalıdır ki, Alplıq-bahadırlıq təbliğ-tərənnüm edən nəhəng oğuznamə silsiləsindən (mərkəzdə "Kitabi-Dədə Qorqud" boyları olmaqla) "Koroğlu" eposuna, qaçaq dastanlarınacan öz aparıcı mövqeyini qoruyub saxlayan qəhrəmanlıq motivi qədim türk-oğuz cəmiyyətindəki yaşamaq, mövcud olmaq təsəvvürünün sonrakı tarixi dövrlərə etnik-irsi daşıyıcı funksiyasını yerinə yetirmişdir.

Qəhrəmanlıq dastanları tarix etibarı ilə, məhəbbət və ailə-əxlaq dastanlarından daha əvvəlki dövrlərə aiddir. Orta əsr Azərbaycan dastançılığında oğuz epik ənənəsinə məxsus süjet və poetika ünsürləri, motivlər müəyyən yer tutmaqdadır. Bu sırada "Kitabi-Dədə Qorqud" boylarından gələn motivlər daha qabarıq nəzərə çarpır. Məsələn, istər "Koroğlu", istərsə də, "Şah İsmayıl və Gülzar", "Novruz və Qəndab", "Mehr və Mah" və s. məhəbbət dastanlarında ən müxtəlif istiqamət və səviyyələrdə Dədə Qorqud motivləri müşahidə edilir.

Qədim əfsanələr, rəvayətlər, nağıllar və "Dədə Qorqud" boylarının motivləri zəminində orta əsrlərdə bir sıra digər dastanlar yaranmışdır. Bu dastanlarda başlıca cəhət qəhrəmanın öz məhəbbətinə qovuşması üçün saz və sözlə yanaşı, ağlın və qılıncın gücündən də istifadə etməsidir.

Dastanlarımızda tarixi və etnoqrafik baxımdan diqqəti cəlb edən digər əsas məsələ onların yarandığı dövrün xarakterik xüsusiyyətlərini özündə cəmləşdirməsidir. Orta əsrlərə aid həyat tərzi, dünyagörüşü və s. dastanlarda bütün dolğunluğu ilə təcəssüm olunur. Bu baxımdan qeyd edilməlidir ki, "Kitabi-Dədə Qorqud" dastanlarından sonra xalqımızın yaratdığı ən möhtəşəm ədəbi abidə "Koroğlu" dastanıdır. "Kitabi-Dədə Qorqud"la "Koroğlu" arasında unikal bir ideya-məzmun, struktur-forma yaxınlığı mövcuddur. Belə ki, hər iki dastan-eposun eyni bir etnik sistemin, dövr baxımdan isə Orta əsrlərin məhsulu olmasıdır. "Kitabi-Dədə Qorqud"un formalaşdığı tarixlə bağlılığı nə qədər güclüdürsə, "Koroğlu"nun öz dövrü ilə bağlılığı da bir o qədər güclüdür.

"Koroğlu" dastanının toplanması və nəşri işində Vəli Xulufludan gələn ənənəni Hümmət Əlizadə davam etdirmişdir. Onun ayrı-ayrı aşıqlardan toplayıb tərtib etdiyi mətn ifaçının – söyləyicinin danışdığı tərzdə oxuculara çatdırılmışdır. O, 1941-ci ildə eposdan müəyyən parçaları ayrıca kitab şəklində nəşr etdirmişdir. Eposun seçmə qollarının sistemləşdirilərək elmi mətninin hazırlanması, tərtibi və nəşri isə M.H.Təhmasibin adı ilə bağlıdır.

"Koroğlu" eposu yayılma arealı etibarilə alternativsiz bir folklor abidəsi olmaqla, məzmun və süjet fərqinə görə əsasən üç yerə bölünür: Türkmən, Azərbaycan və Kiçik Asiya variantları. Dastan haqqında xüsusi araşdırmanın müəllifi olan türk folklorşünası P.N.Boratov həmin bölgüyə uyğun gələn "Koroğlu"ları tədqiq edərək belə bir qənaətə gəlmişdir ki, bütün bu variant və versiyaların əsasını – kökünü Azərbaycan eposu təşkil edir.

Xatırladaq ki, 1518-ci ildə Toqatda Şeyx Cəlalın rəhbərliyi ilə

başlayan Cəlalilər üsyanı sonrakı proseslərə güclü təkan vermişdir. Üsyanların geniş yayıldığı dövrdə Koroğlu kimi ünlü bir Cəlali meydana çıxmışdır. Qaynaqların bəzilərində Koroğlunun Geredənin Soyuk (Sayık, Sayalık) kəndindən olduğu barədə məlumat verilir. İslam Ensiklopediyasında isə qeyd olunur ki, adı Rövşən olan Koroğlu 1580-1584-cü (hicri 988-992-ci) illərdə öz məmləkətində – Boluda, sonrakı dövrdə dağlarda – Çamlıbeldə qaçaqçılıq etmişdir. Sonralar o, Çamlıbeldə (Çənlibel) Osmanlı qüvvələri tərəfindən sıxışdırılmış, İrana qaçmış və Şah Abbasın xidmətinə girmişdir. Hətta "Koroğlu" dastanının Paris nüsxəsində Şah Abbasın Koroğlunu öldürtdüyü də qeyd edilir.

Müxtəlif tarixi mənbələrdə Koroğlunun silahdaşlarının prototipləri də tarixi şəxsiyyətlərdir. Cəlalilər dövrünün salnamələrində Dəli Həsən, Kosa Səfər, Giziroğlu Mustafa bəy, Tanrıtanımaz, Qaraqaş, Qırlı, Qara Saad, Yolasığmaz, Ağacanpiri, Göyəbaxan Çıplaq, Kosa-Kosa, Bəlli Əhməd, Dəmirçioğlu, Mahmud Bəzirgan, İsabalı, Eyvaz, Səfər, Yusif və başqaları ayrı-ayrı bölükbaşıları, Koroğlunun silahdaşları kimi göstərilirlər. Tarixçilər həm tarixi mənbələrə, həm də dastanın müxtəlif variantlarına əsaslanaraq "Ərzurum yolu üzərində soyğunçuluq, yolkəsənlik edən və Təkə soyuna mənsub bir türkmən" olan Koroğlunun 1587-1629-cu illərdə I Şah Abbasın, III Sultan Muradın və IV Sultan Muradın hakimiyyəti illərində yaşadığını qeyd edirlər. Bir sözlə, tarixi qaynaqlarda qaçaq kimi göstərilən Koroğlu xalq yaradıcılığında ideallaşmış qəhrəman surətinə çevrilmişdir. Bu işdə aşıqlar və saz-söz şairləri də mühüm rol oynamışlar.

Göründüyü kimi, "Koroğlu" dastanı daha çox Anadolu və Azərbaycan mühiti ilə bağlı olmuşdur və bu baxımdan onun etnoqrafik baxımdan tədqiqi Azərbaycanın və Anadolunun həmin dövrdəki təsərrüfat həyatını, maddi və mənəvi mədəniyyətini daha dərindən öyrənməyə, əsrlər arasında əlaqə yaratmağa imkan verir.

XIX əsrdə çar Rusiyasının işğalçılıq siyasəti, habelə 1813-cü il "Gülüstan", 1828-ci il "Türkmənçay" müqavilələrinədək olan müharibələr və XIX əsrin ortalarında baş verən üsyanlar xalqımızın çarizmin zülmünə qarşı müqavimətinin bir forması idi. Milli qəhrəmanlarımız Azərbaycanın ayrı-ayrı bölgələrində düşmənə qarşı rəşadətlə vuruşmuşlar. Qarabağda Süleyman, Murtuza, Şuşada Məmməd bəy Kavaler, Zəngəzurda Qaçaq Nəbi, Sultan bəy, Gəncədə Dəli Alı, Qəmbər, Zaqatalada Yusif, Nuxa qəzasında Qutqaşenli Kərim Əfəndi, Qərbi Azərbaycanda Abbasqulu ağa Şadlinski və başqaları məşhur qaçaq hərəkatı rəhbərləri idilər.

Azərbaycan xalqının istiqlaliyyət uğrunda apardığı bu mübarizəni əks

etdirən qəhrəmanlıq dastanlarından olan "Qaçaq Nəbi" XX əsrin 30-cu illərindən toplanmağa başlamış və 1938-ci ildə ayrıca kitabça halında nəşr olunmuşdur. Sonralar dastan folklorşünas Ə.Axundov tərəfindən toplanmış və 1941-1961-ci illərdə iki dəfə - 1960 və 1977-ci illərdə kitab halında çap edilərək işıq üzü görmüşdür.

R.Rüstəmzadə "Qaçaq Nəbi" dastanının şifahi şəkildə hələ XX əsrin əvvəllərindən geniş yayıldığını yazır. Digər qəhrəmanlıq dastanları kimi, bu dastan da ilk əvvəl ayrı-ayrı qoşmalardan ibarət olmuş və sonra bu qoşmalar rəvayətlərlə birləşərək dastan şəklinə düşmüşdür.

XIX əsrin ikinci yarısında Azərbaycanın ayrı-ayrı qəzalarında 100-dən artıq qaçaq dəstəsi vardı ki, onların da içərisində Qaçaq Nəbinin dəstəsindən sonra ən şöhrətlisi Qaçaq Kərəmin dəstəsi idi. El sənətkarlarından Göyçəli Aşıq Məhəmmədin "Kərəmxan Sərtib", şair Qul Vəlinin "Qaçaq Kərəmlə Zalı xan", Hüseyn Qəmlinin "Qaçaq Kərəm" dastanlarında bu qəhrəmanın fəaliyyəti təsvir və tərənnüm olunmuşdur. Bundan başqa, "Yeddi dastan" adlı kitabda "Qaçaq Kərəm", "Qara Tanrıverdi", "Qaçaq Süleyman", "Hacı", "Qara Söyün", "Pəhləvan İsrafil", "Qandal Nağı" dastanları da cəmləşdirilib çap olunmuşdur.

Fərman Eyvazlının "Qaçaq Kərəm" romanına "Cəngavərliyin tərənnümü" adlı ön sözdə İsmayıl Şıxlı qeyd edir ki, gürcü yazıçısı Vano Mçedlişvili inqilabdan əvvəl "Qaçaq Kərəm" adlı pyes yazmış və həmin pyes 1912-ci ildə Tiflisdə tamaşaya qoyulmuşdur. 1928-ci ildə Hüseynbəy Mirzəcamalov bu pyesi Azərbaycan dilinə tərcümə etmiş və Bakıda, Naxçıvanda, Qazaxda tamaşa şəklində nümayiş olunmuşdur.

Nəcəfbəy Vəzirov da 1912-ci ildə "Keçmişdə qaçaqlar" pyesini yazarkən heç şübhəsiz ki, Kərəmi nəzərdə tutmuş və ehtimal ki, Dilican tərəflərdə meşəbəyi olarkən onunla görüşmüşdür. Bundan başqa, Qaçaq Kərəm haqqında M.S.Ordubadi, S.Vurğun, M.Hüseyn, O.Sarıvəlli və H.Arif müxtəlif illərdə hekayələr, şerlər, məqalələr yazmış, aşıqlarımız onun haqqında rəvayətlər və kiçik dastanlar yaratmışlar.

Bu dastanlarla bağlı fərqli fikirlər də mövcuddur. Əslində nə Qaçaq Nəbi, nə Qaçaq Kərəm, nə də Qandal Nağı sözün əsl mənasında tam dastanlaşmış sözlü tarix məhsulu deyildir. Ancaq burada qaçaq dastanları termini ilə dastanvari tarix nəzərdə tutulmuşdur ki, bu da kəndli iğtişaşlarına yaxın olan qaçaqçılıq hərəkatının saz şairləri tərəfindən süjetli dastana dönüşdürülməsi prosesinin başlanğıcı idi. Azərbaycan tarixinin və Azərbaycan folklorunun ən mürəkkəb və az araşdırılmış məsələlərindən biri olan sözlü tarix qaçaqçılıq hərəkatı ətrafında yaranan "dastan"ların və

ya dastanlaşmağa doğru gedən folklor hadisəsinin ortaya çıxmasına səbəb oldu. Folklorşünaslıq baxımından müxtəlif rəylərə baxmayaraq, XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid qəhrəmanlıq dastanlarının etnoqrafik baxımdan tədqiqi aktuallıq daşımaqla, dövrün etnoqrafik mənzərəsini də yaratmağa imkan verir.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycanın qəhrəmanlıq dastanları əsasında xalqımızın təsərrüfat həyatı, maddi və mənəvi mədəniyyəti, sənətkarlığı, ailə-nikah münasibətlərini tarixi-etnoqrafik baxımdan, müasir etnoqrafiya elminin nəticələri ilə müqayisəli şəkildə öyrənməkdir. Tədqiqat işində məqsədə nail olmaq üçün qəhrəmanlıq dastanlarının uzun bir zamanı əhatə etməsi faktına xüsusi diqqət yetirilmiş və aşağıdakı vəzifələrin yerinə yetirilməsinə səy göstərilmişdir:

– Azərbaycanın qəhrəmanlıq dastanları əsasında xalqımızın əkinçilik və maldarlıq mədəniyyətini, taxılçılıq, bağçılıq və bostançılıq, xırdabuynuzlu və iribuynuzlu heyvandarlıq, atçılıq, dəvəçilik və s. təsərrüfat sahələrini tədqiqata cəlb etmək;

– Maddi və mənəvi mədəniyyətin, ailə məişətinin, ailədaxili münasibətlərin və s. arasıkəsilmədən mövcudluğunu, inkişafını etnoqrafik baxımdan sübut etmək;

– Yaşayış yerlərini və evləri, geyim və bəzəkləri, yemək və içkiləri, ağacişləmə, yəhərçilik, dəmirçilik, nalbəndlik, toxuculuq və s. maddi mədəniyyət və sənətkarlıq sahələrini tədqiq etmək;

– Azərbaycan xalqının maddi mədəniyyət və sənətkarlığını qədim dövr, orta əsrlər, eləcə də XIX-XX əsrədək ardıcıllıqla, indiyədək aparılmış etnoqrafik tədqiqatların nəticələri ilə müqayisəli şəkildə araşdırmaq;

- Ailə məişəti ilə bağlı materialları müqayisəli şəkildə tədqiq etmək;
- Xalq yaradıcılığı, aşıq musiqisi, xalq bayramları, dini inanclar, oyun və əyləncələr və s. kimi mənəvi mədəniyyət sahələrini öyrənmək.

**Tədqiqatın xronoloji çərçivəsi** "Kitabi Dədə Qorqud" dastanının yarandığı VII əsrdən XIX-XX əsrin əvvəllərinədək olan dövrü əhatə edir. Bu dastanın yazıya alınmasının 1300 illik yubileyinin keçirilməsi ilə əlaqədar gəlinən nəticələrin yekunu olsa da, ədəbi abidədə daha əvvəlki hadisələrin əksi aydın görünür. Əsasən XVI – XVII əsrləri əks etdirən "Koroğlu" dastanı və XIX – XX əsrin əvvəllərinə aid "Qaçaq Nəbi" və "Qaçaq Kərəm" kimi qəhrəmanlıq dastanları ilə bağlı xronologiya isə tədqiqat dövrünü inkişaf etmiş Orta əsrlərdən XX əsrin əvvəllərinədək

müəyyənləşdirməyə imkan verir.

**Tədqiqat obyektini** Azərbaycanın xalq qəhrəmanlıq dastanları təşkil edir. Bu dastanların bəziləri, xüsusi ilə "Kitabi- Dədə Qorqud" və "Koroğlu" dastanı ümumtürk mədəniyyətinin və dünyagörüşünün incisi sayılır. Bu dastanların Azərbaycan, Qafqaz, Orta Asiya və Türkiyə əraziləri ilə bağlılığı, əsasən ümumtürk təfəkkürünün nəticəsi olması haqqında kifayət qədər tədqiqatlar aparılmış və fakt dissertasiyada elmi dəlillərlə sübuta yetirilmişdir.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Dissertasiyanın yazılmasında əsas mənbə kimi "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm" və s. dastanların müxtəlif nəşrləri istifadə edilmişdir. Bundan başqa, dastanların uzun bir zaman dövrünü əhatə etdiyini nəzərə alaraq, Azərbaycan tarixi, folkloru və s. ilə bağlı digər əsərlərə, xüsusilə də tarixi arxeoloji mənbələrə, etnoqrafik tədqiqatlara müraciət edilmiş və müqayisəli təhlillər əsasında bu şifahi xalq ədəbiyyatı nümunələrində mədəni varisliyin qorunub saxlandığı bir daha təsdiq edilmişdir. İstifadə edilmiş mənbə və ədəbiyyat sırasında "Azərbaycan etnoqrafiyası" çoxcildliyi ilə yanaşı, akademik T.Bünyadov, M.Dadaşzadə, A.Mustafayev, F.Vəliyev, Ş.Bünyadova, S.Məhərrəmova, Q.Qeybullayev, Ş.Quliyev, Q.Cavadov, H.Həvilov , Q.Rəcəbli, T.Babayev, T.Kərimov, X.Xəlilli, M.Allahmanlı, Ə.Əliyev və başqa etnoqrafların, Ş.Cəmşidov, A.Nəbiyev, İ.Abbaslı, T.Hacıyev, B.Abdulla, M.Allahmanlı, K.Əliyev və s. etnoqraf və folklor tədqiqatçılarının əsərlərini qeyd etmək olar.

**Tədqiqatın elmi yeniliyi.** Qəhrəmanlıq dastanları ədəbiyyatşünaslıq, dilçilik, folklor, tarix, toponimik baxımdan geniş tədqiq olunsa da, etnoqrafik baxımdan bunu söyləmək mümkün deyil. Yəni qəhrəmanlıq dastanlarımız ilk dəfə olaraq, etnoqrafik tədqiqata cəlb edilir və onlara etnoqrafik baxımdan bir bütöv kimi baxılır. Bu dastanlar əsasında ilk Orta əsrlərdən başlayaraq son dövrlərə qədər xalqımızın təsərrüfat həyatının-əkinçilik, maldarlıq və s. kimi mühüm sahələrinin öyrənilməsi göstərir ki, Azərbaycan qədim dövrlərdən inkişaf etmiş əkinçilik ölkəsi olsa da, burada oturaq və yaylaq-qışlaq prinsipinə əsaslanan köçmə maldarlıq da geniş yayılmışdır. Bundan əlavə, məlum olur ki, yüzillər ərzində Azərbaycan xalqının ailə məişəti, ailə-nikah münasibətləri, mənəvi və maddi mədəniyyəti ilə bağlı bir sıra məsələlər formaca dəyişilsə də, məzmunca əsasən qorunub saxlanılmış, xalqımızın əsrlərə möhür vurmuş maddi və mənəvi mədəniyyəti milli özünüdərkin inkişafında mühüm rol oynamışdır.

**Tədqiqat işinin elmi-praktik əhəmiyyəti.** Qəhrəmanlıq

dastanlarının tədqiqi, əldə edilən nəticələr Azərbaycan etnoqrafiyasının hərtərəfli öyrənilməsində, müqayisəli təhlillərin aparılmasında, xalqın etnogenezinin, təsərrüfat məişətinin, ailə-nikah münasibətlərinin, maddi və mənəvi mədəniyyəti məsələlərinin tədqiqində istifadə oluna bilər. Bir sıra unudulmuş mütərəqqi ənənələrin etnoqrafik baxımdan bərpası və təbliği, fundamental tədqiqatların, dərsliklərin yazılması üçün də dissertasiyaya müraciət oluna bilər.

**Tədqiqatın elmi metodoloji bazasını** tarixi-müqayisəli metod təşkil edir. Problemə belə yanaşma faktiki etnoqrafik materialların müqayisəli təhlilinə və sistemləşdirilməsinə imkan verir. Qəhrəmanlıq dastanlarında üzə çıxarılan etnoqrafik məlumatların tarixi faktlar və aparılmış etnoqrafik tədqiqatların nəticələri ilə müqayisəli təhlili obyektiv nəticələr əldə etməyə imkan vermişdir. Burada əsas məsələlər tarixi təkamül prinsipi əsas tutularaq araşdırılmış, məişət və mədəniyyətimizin əsas prinsipləri mədəni varislik məsələlərinin dinamik inkişafı baxımından ardıcıl izlənilmişdir.

**Problemin öyrənilmə vəziyyəti.** Azərbaycanın qəhrəmanlıq dastanları uzun illərdir ki, müxtəlif elm sahələri üçün çox mühüm qaynaq, mənbə rolunu oynamışdır. Bu dastanlara ədəbiyyatşünaslar, folklorşünaslar, tarixçilər müraciət etmiş və hər kəs öz sahəsinə uyğun araşdırmalar aparmışlar. Etnoqraflar tərəfindən müxtəlif məsələlərə yanaşmalar olsa da, qəhrəmanlıq dastanları bütövlükdə etnoqrafik baxımdan ümumiləşdirilmiş mövzu kimi işlənməsə də, Ə.Əsgərov, M.Dadaşzadə, Q.Rəcəbli, S.Dünyamalıyeva, Q.Qeybullayev və başqalarının müəyyən tədqiqatları mövcuddur. Məsələn, etnoqraf Ə.Əhmədov "Kitabi Dədə Qorqud" dastanları əsasında xalqımızın ailə-nikah münasibətlərinə məqalə həsr etmiş, dastanda əksini tapmış bəzi yeməklər və içkilər, geyimlər və bəzəklərlərlə bağlı bir sıra araşdırmalar aparmışdır. Bu sırada Q.Rəcəblinin tədqiqatları da diqqət çəkir.

Dastandakı ailə-nikah və digər məsələlər Q.Qeybullayevin, ənənəvi geyimlər S.Dünyamalıyevanın, oyun və əyləncələr M.Dadaşzadənin tədqiqatlarında əksini tapmışdır. Folklorşünas B.Abdullanın, V.Veysəlovanın və Ə.Əsədovanın araşdırmalarında da qəhrəmanlıq dastanlarımızdakı bəzi mədəni-məişət məsələlərinə müraciət edilmişdir. Ailə-məişət məsələlərinin bəzi aspektləri etnoqraf Ş.Bünyadovanın "Orta əsr Azərbaycan ailəsi" monoqrafiyasında araşdırmaya cəlb olunmuşdur.

Lakin "Kitabi Dədə Qorqud" dastanından fərqli olaraq, "Koroğlu", "Qaçaq Nəbi" və digər başqa dastanlarımız demək olar ki, etnoqrafik tədqiqata cəlb edilməmişdir. Yalnız onu qeyd etmək lazımdır ki, Akademik

Teymur Bünyadov özünün "Bir qız bir oğlanındı" adlı etnoqrafik əsərində "Qaçaq Kərəm" dastanındakı bir sıra epizodları özünəməxsus şəkildə oxucuya təqdim etmişdir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Tarixi Etnoqrafiya şöbəsində yerinə yetirilmiş, 2016-cı ildə geniş müzakirə olunaraq bəyənilmiş və müdafiəyə təqdim edilmişdir. Dissertasıyanın əsas müddəaları müəllifin müxtəlif elmi nəşrlərdə çap olunmuş elmi məqalələrində və konfrans materiallarında əksini tapmışdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, dörd fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, tədqiqatın məqsəd və vəzifələri, tədqiqatın xronoloji çərçivəsi, mənbəşünaslıq bazası, mövzunun öyrənilmə dərəcəsi, elmi yeniliyi, nəzəri-praktiki əhəmiyyəti, aprobasiyası, dissertasiyanın quruluşu haqqında məlumat verilir.

Qeyd olunur ki, Azərbaycanın qəhrəmanlıq dastanlarının etnoqrafik baxımdan tədqiqi milli-mənəvi dünyamızı, təsərrüfat həyatı, maddi mədəniyyət, sənətkarlıq və ailə-nikah münasibətlərinin yüzillər ərzində inkişafını izləməyə imkan verir. Tədqiqatın nəticələri siyasi və sosial-iqtisadi dəyişikliklər, eləcə də hərbi, dini və s. proseslər nəticəsində unudulmuş, itmiş və ya itməkdə olan etnoqrafik elementləri bərpa etməyə, müasir dövrdəki bir sıra etnoqrafik məsələlərin izahını verməyə imkan yaradır.

Qəhrəmanlıq dastanları digər şifahi xalq yaradıcılığı nümunələrindən təkcə süjet xətti, həcmi, nəzm və nəsrin bir arada olması və s. ilə deyil, öz tarixiliyi və etnoqrafik əhəmiyyəti ilə də diqqəti cəlb edir. Onlar müəyyən tarixi dönəmin etnoqrafik güzgüsüdür.

Dissertasiyanın **"Təsərrüfat həyatı"** adlanan birinci fəsli dörd yarımbaşlıqdan ibarətdir və burada ənənəvi əkinçilik, maldarlıq, atçılıq, dəvəçilik, ovçuluq və təsərrüfat məişəti ilə bağlı digər məsələlər tədqiq edilmişdir. Qeyd etmək lazımdır ki, qəhrəmanlıq dastanları milli xarakteri özündə əks etdirməklə yanaşı, bu xarakterin formalaşmasında mühüm rol oynayan həyat tərzinin, təsərrüfat həyatının, maddi və mənəvi mədəniyyət elementlərinin daşıyıcısı kimi də çıxış edir. Saz-söz nəql, anlatma, hekayət yolu ilə yaşayan dastanlar xalqın təsərrüfat həyatının arasıkəsilməzliyini,

davamlılığını təsdiqləyir. Erkən orta əsrlərə aid “Kitabi-Dədə Qorqud”da, inkişaf etmiş Orta əsrlərə aid “Koroğlu”da, eləcə də XIX-XX əsrin əvvəllərinə aid digər qəhrəmanlıq dastanlarında xalqın taxılçılıq, əkin-biçin məsələləri, əkinçilik alətləri, qoşqu qüvvəsi, suvarma və s.-lə bağlı materiallar bir-birini izləməkdədir.

Məlum olduğu kimi, təsərrüfat həyatı müəyyən bir coğrafi ərazi daxilində mövcud olur və sosial inkişafda onun üçün vacib olan şərtlər mühüm yer tutur. Yəni hər hansı coğrafi məkanda məskunlaşan xalqın təşəkkülündə təsərrüfat həyatının xarakteri, istiqamətləri xüsusi rol oynamışdır. Şifahi xalq yaradıcılığının digər nümunələri kimi, dastanlar da konkret ərazidə formalaşmaqla, bütün digər məsələlərlə yanaşı, bu fəaliyyət sahəsinə dair mühüm mənbələrdən hesab olunur.

Maraqlıdır ki, erkən Orta əsrlər və XIX-XX əsrin əvvəllərinə aid dastanlardakı etnoqrafik mənzərə Dədə Qorqud dönəmində mövcud olan etnoqrafik mənzərə ilə sıx şəkildə əlaqəlidir. Bu isə o deməkdir ki, eramızdan əvvəlki yüzilliklərin təsərrüfat məişəti, maddi və mənəvi mədəniyyəti əsasında inkişaf edən Dədə Qorqud dövrünün etnoqrafiyası özündən sonrakı dövrün maddi-mənəvi özülü funksiyasını yerinə yetirmişdir. Xronoloji baxımdan yanaşdıqda da “Kitabi-Dədə Qorqud” dastanlarını inkişaf etməkdə olan feodalizm dövrünün məhsulu olduğu halda, “Koroğlu” inkişaf etmiş feodalizm dövrünün dastanıdır. Həmin dövrlərdə Azərbaycanın məişət və mədəniyyətində baş verən dəyişikliklər cəmiyyətin sosial-iqtisadi inkişafı ilə əlaqəli idi. Lakin bu dəyişikliklərə, daha doğrusu, inkişafa baxmayaraq, Azərbaycan xalqının təsərrüfat həyatı, maddi-mənəvi mədəniyyəti, ailə məişəti, sənətkarlığı və s. mahiyyət etibarı ilə əsasən sabit qalmış, nəsillər arasında varislik, milli-mənəvi bütövlük qorunub saxlanılmışdır.

Qəhrəmanlıq dastanlarının etnoqrafik baxımdan tədqiqi əcdadlarımızın köçmə maldarlıqla daha çox məşğul olduğunu təsdiqləsə də, artıq Dədə Qorqud dönəmində geniş şəkildə taxıl, pambıq əkilib-becərildiyi, üzümçülüyün, bağ və bostançılığın inkişaf etdiyi məlum olur. Əhali tarlaların suvarılması üçün arxlar çəkmiş, suvarma sistemi yaratmış, dəyirmanlar işlətmişdir. Fikrimizcə, “Kitabi-Dədə Qorqud” dastanlarının tarixi baxımdan Albaniya ilə əlaqələri tədqiq edilməsə də, arxeoloji faktlarla təsdiqlənən etnoqrafik materiallar bu əlaqələrin mümkünlüyünü göstərir. Bu da ilk növbədə coğrafi baxımdan məkanın eyniliyi, taxılçılığın, suvarma sisteminin və s. inkişafı ilə bağlıdır.

Koroğlu dövründə əhalinin cüt və ya xış, kotan, kəl, kotan zənciri və

s. əkinçilik alətlərindən, qoşqu qüvvəsindən geniş istifadə etdyinin şahidi oluruq. Bu dövrün insanları "kotanın, xışın qiymətini bilmiş, "cüt sürüb əkin əkmiş", cütə "költəkəl" qoşmuş, "taxıl biçib dərzləmiş", dəyirmanda arpa, buğda, darı üyüdərək zəhməthaqqı kimi "şahad almış", çəltik əkib düyüsündən plov bişirmişlər. Dastanın tədqiqi göstərir ki, İlk orta əsrlərdə olduğu kimi, sonraki dövrlərdə də Azərbaycan və Anadolu əhalisinin təsərrüfat həyatı eyni olmuş, əhalinin həyatında əkinçilik, xüsusilə taxılçılıq mühüm yer tutmuşdur. Bundan başqa, "Koroğlu", "Qaçaq Nəbi" və s. qəhrəmanlıq dastanlarından aydın görünür ki, əhali taxıl əkinçiliyi ilə bərabər, bağçılıq, üzümçülük, bostançılıqla da məşğul olmuşdur.

Qəhrəmanlıq dastanlarında xırda və iribuynuzlu heyvanların saxlanması, bəslənməsi, çobanlıq, xalq təqvimi, qarşılıqlı yardım formaları, çovdarlıq və s. kimi məsələlər də öz əksini tapmışdır. Bu dastanların tədqiqi və indiyədək aparılmış etnoqrafik tədqiqatlarla müqayisəli təhlil göstərir ki, İlk orta əsrlərdən XX əsrin ortalarınadək Azərbaycan türklərinin təsərrüfat həyatında oturaq və yaylaq-qışlaq prinsipinə əsaslanan köçmə maldarlıq mühüm yer tutmuşdur. Lakin XIX əsrin əvvəllərindən etibarən, köçmə maldarlığın əhatə dairəsi daralmağa başlayır. Bu prosesdə çar Rusiyasının torpaqlarımızı işğal etməsi, Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsi, Azərbaycan ərazisinə erməni, rus, alman və s. xalqların nümayəndələrinin köçürülməsi, xristian əhalidən ibarət dayaq yaratmaq planları, kapitalist münasibətlərinin inkişafı, yeni istehsal sahələrinin, fabrik-zavodların yaranması və s. köçmə maldarlığın imkanlarını məhdudlaşdırırdı. Bütün bu proseslərin nəticəsində əhalinin sayının artması, yeni yaşayış yerlərinin yaranması, işçi qüvvəsinə tələbatın artması və s. məsələlər də örüş sahələrinin azalmasına, köçmə maldarların böyük əksəriyyətinin birdəfəlik oturaq maldarlığa keçməsinə səbəb olmuşdur.

Dastan süjetlərindən o da məlum olur ki, Dədə Qorqud dönəmi, Orta əsrlər, eləcə də XIX əsr və XX əsrin əvvəllərində atçılıq təsərrüfat məişətində, minik və qoşqu qüvvəsi kimi nəqliyyatda, eləcə də xalqımızın mənəvi həyatında özündən əvvəlki dövrün davamı olaraq mühüm yer tutmuş, "bədəvi atlar", "ərəb atlar" yerli atlardan fərqləndirilmiş, "ağ-boz atlar", "Qaraqoc atlar", "Qazılıq atlar", "şahbaz atlar" dedikdə isə yerli atlar nəzərdə tutulmuşdur. Bundan başqa, dəvə də əhalinin əsas nəqliyyat vasitələrindən olmuş və əsas yük-minik vasitələrindən biri olmaqla bərabər, həm də var-dövlət simvolu sayılmışdır.

Dissertasiyanın **"Maddi mədəniyyət və sənətkarlıq"** adlanan ikinci

fəslində qəhrəmanlıq dastanlarında yaşayış məskənləri və evlər, yemək və içkilər, geyim və bəzəklər, sənətkarlıq məsələlərinin tədqiqi əksini tapmışdır. Dastanların tədqiqi əsas hadisələrin Şimali və Cənubi Azərbaycan, Qafqaz, Anadolu ərazilərində cərəyan etdiyini göstərir. Məlum olur ki, adları çəkilən daimi yaşayış məskənlərinin - şəhərlərin, kəndlərin, müvəqqəti yaşayış yerlərinin mütləq əksəriyyətində Azərbaycan türkləri yaşamışlar. Dədə Qorqud dövrünün daimi və müvəqqəti evlərinin məhz Azərbaycanın ənənəvi ev tipləri olduğu və bu evlərlə bağlı məlumatların xalqımızın yaddaşında həkk olunduğu da dastan süjetlərindən məlum olur.

XIX əsrin sonu- XX əsrin əvvəllərində Azərbaycanda ənənəviliyi saxlamaqla yeni yaşayış evləri meydana çıxırdı. Bu, bir tərəfdən böyük ailələrin parçalanaraq kiçik ailələrə çevrilməsinin nəticəsi idisə, digər tərəfdən də əhalinin sürətli artımı nəticəsində müvəqqəti yaşayış məskənlərinin daimi yaşayış məskənlərinə çevrilməsi, yaşayış yerlərinin böyüməsi və s. ilə əlaqədar idi.

Qəhrəmanlıq dastanlarındakı geyimlər, bəzəklər, yeməklər və içkilər haqqında zəngin etnoqrafik məlumatlar təxminən yüz illər ərzində Azərbaycanın maddi mədəniyyətinin bu mühüm sahəsinin arasıkəsilməz şəkildə, əvvəlki təcrübə əsasında inkişaf etdiyini, müxtəlif tarixi-ictimai proseslərin nəticəsi olaraq, yenilikləri əxz etdiyini sübuta yetirir. Bu məlumatlarda kişi və qadın geyimlərinin, sosial zümrələr üzrə geyimlərin, gündəlik və mərasim yeməklərinin hər dövr üçün xüsusiyyətləri və ictimai mahiyyəti öz əksini tapır.

Dastanlarda həmçinin ağacişləmə, sazbəndlik, yəhərçilik, yun və ipəktoxuma, xalçaçılıq, dəmirçilik, nalbəndlik, dulusçuluq və s. kimi sənət növləri haqqında məlumatlar da geniş yer tutur. Ayrı-ayrı dastan epizodları bu sənət növlərinin inkişafında mühüm rol oynayan qoyunçuluq, baramaçılıq, tutçuluq və s. təsərrüfat növlərinin səviyyəsi barədə, ticarət, dəvə karvanları və s. haqqında əyani təsəvvür yaradır.

Məlum olduğu kimi, Azərbaycan torpaqlarının zəngin təbii xammal ehtiyatı (ağac, gil, daş, mineral boyaqlar, əlvan və qara metallar, yabanı lifli bitkilər), qədim zamanlardan başlayaraq burada əkinçilik və maldarlıq məhsullarının (yun, gön-dəri, sümük, kətan, pambıq, ipək və s.) müxtəlif sənət sahələrinin meydana gəlməsi üçün əlverişli şərait yaratmışdır. Yeni dövrün əmək alətləri, məişət vasitələri və silahlarının səciyyəvi xüsusiyyəti bundan ibarət idi ki, müasir texniki tərəqqi ilə əlaqədar olaraq, onların bir qismi təkmilləşib dəyişikliyə uğramaqla, özlərinin əməli əhəmiyyətini xeyli

dərəcədə qoruyub saxlaya bilmiş, yeni məişət tələblərinə cavab verə bilməyən qismi isə tədricən aradan çıxmış, yaxud yeniləri ilə əvəz olunmuşdur. Həyatın bu dəyişməz, dialektik qanunauyğunluğu yeni dövrün maddi mədəniyyətinin bütün sahələrində, o cümlədən əmək alətləri və silahların tarixi taleyində də aydın izlənilir. Sənətkarlığın tədqiqi həmçinin inkişafının müxtəlif pillələrində məhsuldar qüvvələrin və istehsal münasibətlərinin vəziyyətinin müəyyənləşdirilməsində də böyük əhəmiyyətə malikdir .

Dissertasiyanın **“Ailə və ailə məişəti”** adlanan üçüncü fəslində qəhrəmanlıq dastanlarında ailədaxili münasibətlər, nikah, toy, uşaqların tərbiyəsi, dəfn və yas mərasimlərinin əksi kimi məsələlər tədqiqata cəlb edilmişdir. Ağsaqqalın, böyüyün sözünə, məsləhətlərinə hörmət etmək, qulaq asmaq xalqımızın mənəviyyatının tərkib hissəsi kimi zaman-zaman yaşayan dəyərli adət-ənənələrdəndir. “Kitabi-Dədə Qorqud” dastanından məlum olur ki, Oğuz tayfalarının müdrik el ağsaqqalı, kamil bilicisi Dədə Qorquddur. Dastanın müqəddiməsində bildirilir: “Qorqud Ata Oğuz qövmünün müşkülünü həll edərdi. Hər nə iş olsa Qorqud Ataya danışmayınca işləməzlərdi. Hər nə ki, buyursa qəbul edərlərdi. Sözün tutub tamam edərlərdi”. Qorqud Dədə qədim oğuzların şad və dar günündə yanında olur, xeyirə, igidliyə təriflər deyir, pisliyi lənətləyir. Nəyin yaxşı, nəyin pis oldugunu qiymətləndirmək haqqı məhz eposda ona məxsusdur.

Xalq dastanlarının istər qədim, istərsə orta əsr nümunələrində ailə-əxlaq, yaxud məişət motivləri ilə olduqca zəngindir. Bu cəhətdən ən zəngin qaynaq olan “Dədə-Qorqud” dastanının Buğac və Beyrəklə bağlı boylarında orta əsr ailə-etik prinsiplərinin geniş mənzərələri verilmişdir. Buğacla anasının düşmən toruna düşməsi, Beyrəyin ox atıb gərdək qurduğu toy mərasimi, əsirlikdə qalan yoldaşlarını xilas etməyincə evlənməməsi, Qazan xanın evinin yağmalanmasında ana və oğulun mərdanə dözümü, çobanın möhkəm iradəsi və sədaqəti, Qazan xanın anasına olan övlad məhəbbəti və s. göstərir ki, Azərbaycan xalqının milli məişətində ağır sınaqlardan çıxmış möhkəm ailə özülü vardır.

Bütün bunlar isə Azərbaycan xalqının ailə-nikah münasibətlərində müsbət mənada mühafizəkarlığın qorunub saxlanıldığını üzə çıxarır. Ağsaqqala, ataya, anaya, qız-qadınlara hörmət göstərmək, övlada məhəbbət dastanlarda həmişə ön planda verilir. Ailə daxilində ata-ana və övlad, ər-arvad münasibətləri səmimiyyət üzərində qurulur. Ata çalışır ki, oğlu dözümlü, zəhmətkeş böyüsün, ailəsi, vətən uğrunda canını fəda etməyə hazır olan, layiqli varis olsun.

Dastanların tədqiqindən o da aydın olur ki, Azərbaycanın müxtəlif bölgələrində keçirilməsinə baxmayaraq toylar əslində bir-birindən ciddi şəkildə fərqlənməmiş, müxtəlif sosial təbəqələrə aid olan bu mərasimlərdə bəy və gəlinin, ata-ananın, ağsaqqalların yeri və rolu, ozan, aşıq, sazəndə, xanəndə, musiqiçilərin, qonaqların yeri ənənəvi qaydalara görə müəyyənləşmişdir. İlk Orta əsrlərə aid ozanı inkişaf etmiş Orta əsrlərdə aşıq əvəz etsə də, toylarda həmişə bəy tərifi, gözəlləmə, mübarəknamə söylənilmiş, ağsaqqallar, el-oba bəy və gəlinə xeyir-dua vermişlər. Üzərindən yüz illər keçməsinə baxmayaraq, yas mərasimlərində də İslam ənənələri, bir sıra islamaqədərki dini dünyagörüşün qalıqları yaşamaqda davam etmişdir.

Dissertasiyanın **"Mənəvi mədəniyyət"** adlanan dördüncü fəslində qəhrəmanlıq dastanlarında xalq yaradıcılığı, xalq bayramları və mərasimləri, oyun və əyləncələr, dini inanclar tədqiq edilmişdir. Belə ki, bu dastanlar ozan-aşıq, qopuz-sazın inkişafını göstərməklə, cəngavərlik və qəhrəmanlıqla bağlı saz havalarını, qəhrəmanlıq nəğmələrini yaşadır, insanları vətən uğrunda mübarizəyə, həmrəyliyə, səfərbərliyə çağırır.

"Kitabi-Dədə Qorqud" dastanlarında Dədə Qorqudla yanaşı, digər qəhrəmanlar da qopuz çalır, söz söyləyirlər. Lakin baş ozan-ağsaqqal, bilici, müdrik Dədə Qorquddur. Dədə Qorqud  xalqın istər şad günündə, istərsə də bəd günündə qopuz çalıb söz söyləyir, soy soylayır, xeyir-dua verir, qəhrəmanlara ad qoyur, onları düşmənlə mübarizəyə səsləyir, "xanım hey" – deyə dastanlar söyləyir. "Koroğlu"da isə əsas aşıq qəhrəman Koroğlunun özüdür. Aşıq Cünunla yanaşı, o da ağsaqqaldır, bəy və gəlinə xeyir dua verir, qəhrəmanları tərif edir, qoca-gənc, qadın-kişi, övlad tərbiyəsi və s. haqqında söz söyləyir, öyüd-nəsihət verir, dəlilərini döyüşə səsləyir.

Qəhrəmanlıq dastanlarının tədqiqindən aydın olur ki, qəhrəmanlar əsas bayramların ("Ramazan", "Qurban") iştirakçısıdırlar və bu günlərdə hamı kimi onlar da el-obaya, qohum-əqrəbaya, bir-birilərinə qarşı daha diqqətli və mehriban olurlar.

"Dədə Qorqud" dastanında Qazan xanın suya ("Su haqq didarın görmüşdür", qurda ("Qara başım qurban olsun qurdum sana") müraciəti, Beyrəyin dəniz atı, Koroğlunun "Ağzı qanlı boz qurd olu" – deyimi, Qoşabulağın suyunu içməsi Qırat və Düratın dəniz ayğırının balası olması, hər iki dastandakı "qağan aslan" ifadəsi və s. bir-biri ilə səsləşməklə, xalqın məişətində ilkin inancların da mühüm yer tutduğunu sübut edir.

Dastanlarda əksini tapan oyun və əyləncələr isə xalqımızın təsərrüfat

həyatı, maddi və mənəvi mədəniyyəti, ailə məişəti ilə sıx şəkildə bağlı olmuşdur. At çapmaq, ox atmaq, qurşaq tutmaq, güləşmək gənc nəslin fiziki çevikliyini artırmaqla yanaşı, onların qəhrəmanlıq ruhunda tərbiyəsində də mühüm rol oynamışdır.

Məlum olduğu kimi, İslam dininin Azərbaycanda yayılması, müxtəlif türk tayfalarının qaynayıb-qarışaraq vahid xalq olaraq formalaşmasına, mənəvi baxımdan bütövləşməsinə əsaslı təsir göstərmişdir. Qəhrəmanlıq dastanlarının etnoqrafik tədqiqi bütün bu prosesləri, o cümlədən Azərbaycan xalqının dünyagörüşündə ilkin inancların tədricən öz yerini islamiyyətə verməsini yaxından izləməyə imkan yaradır. Əgər "Kitabi Dədə Qorqud" dastanları ilkin inancların islam inamı ilə əvəzlənməsinin ilk dövrü haqqında məlumat verirsə, "Koroğlu" və digər dastanlarımız xalqın dünyagörüşündə islam inanclarının artıq kifayət qədər dərin kök saldığını təsdiqləyir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiq edilən mövzuya aid materiallara yekun vurulmuş və çıxarılan əsas müddəalar ümumiləşdirilmişdir. Beləliklə, Azərbaycanın qəhrəmanlıq dastanlarının etnoqrafik baxımdan tədqiqindən bir sıra mühüm nəticələr çıxır ki, onlar da aşağıdakılardan ibarətdir:

Birincisi, bu dastanlar milli-mənəvi dünyamızı, xalqımızın təsərrüfat həyatını, maddi mədəniyyətini, sənətkarlığını və s. yüzillər ərzində təkamülünü və inkişafını izləməyə imkan verir.

İkincisi, aparılmış tədqiqatın nəticələri tarixi və sosial-iqtisadi dəyişikliklər, siyasi, iqtisadi, hərbi, dini və s. proseslər nəticəsində itmiş və ya itməkdə olan mədəni-məişət elementlərini bərpa etməyə, bununla da müasir dövrün bəzi etnoqrafik məsələlərinin izahını verməyə imkan yaradır.

Üçüncüsü, qəhrəmanlıq dastanlarının hər biri konkret bir tarixi dövrün etnoqrafik güzgüsü olmaqla, xalqımızın təsərrüfat həyatı, mənəvi mədəniyyəti, ailə - nikah münasibətləri, həyat tərzi və məişəti haqqında müasir dövrümüz üçün çox dəyərli məlumatları özündə əks etdirməklə, müasir etnoqrafik araşdırmalar üçün zəngin material verir.

Nəhayət, dördüncüsü, yeni nəslin milli ruhda böyüməsində, onlarda vətənpərvərlik, Vətənə və torpağa sevgi hisslərinin aşılanmasında, milli-mədəni və mənəvi dəyərlərimzə hörmət hissinin tərbiyə olunması işində də qəhrəmanlıq dastanlarının mühüm rolu vardır.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş məqalələrində öz əksini tapmışdır:**

1. Azərbaycanın qəhrəmanlıq dastanları etnoqrafik mənbə kimi. Azərbaycanda Arxeologiya və Etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı-Bilik 1992 səh. 187-190
2. Koroğlu dastanında atın rolu. Görkəmli Azərbaycan Arxeoloqu Saleh Qazıyevin anadan olmasının 100 illiyinə həsr edilmiş elm sessiyanın materialları. Bakı-Elm, 1994 səh. 189-191
3. Azərbaycanın qəhrəmanlıq dastanlarında xalq oyunlarına dair. 2003-2004-cü illərdə aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiya səh. 148-150
4. Kitabi-Dədə Qorqud dastanında ayaq geyimləri haqqında. AMEA Azərbaycan Arxeologiyası və Etnoqrafiyası jurnalı. Bakı ,2005 №1 səh. 182-186
5. Qəhrəmanlıq dastanlarında yemeklər və içkilər. Mingəçevir arxeoloji ekspedisiyası 60. Mingəçevir 2006 səh. 195-297
6. Azərbaycanda ailə məişətinin bəzi məsələlərinə dair(qəhrəmanlıq dastanları əsasında).Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu Elmi əsərlər Bakı 2012-ci il. Cild 41-43 səh. 348-358
7. Azərbaycan qəhrəmanlıq dastanlarında qadına münasibət. Lidiya Rəsulovanın xatirəsinə həsr olunmuş ”Təhsilin gender aspektləri” Respublika Elmi Konfransın materialları. Qərb Universiteti. Bakı, 2013. səh. 86-96
8. Qəhrəmanlıq dastanlarında qədim türk adətlərinin təzahürü. VIII Uluslararası Türk kültürü, sanatı ve kulturel mirası koruma sempozyumu sanat etkinlikleri. Konya-Türkiyə 2016. səh. 891-894
9. Azərbaycan qəhrəmanlıq dastanlarında geyim və bəzəklər haqqında. Azərbaycan Pedaqoji Universitetin xəbərləri Bakı 2015 №2. səh.151-154
10. Проблемы семьи и семейно-бытовых отношений в героических дастанах Азербайджана. Зборник науковых праць Гилея. науковый весник Киев 2016. Выпуск (№ 5). стр.110-113
11. Azərbaycan qəhrəmanlıq dastanlarında təsərrüfat məişətinin bəzi məsələlərinə dair. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu Elmi Əsərləri Bakı 2016-cı il. Cild 59 səh. 160-170

**Гулузаде Т.Н.**

## ОТРАЖЕНИЕ ЭТНОГРАФИИ АЗЕРБАЙДЖАНА В ГЕРОИЧЕСКИХ ЭПОСАХ

**РЕЗЮМЕ**

Героические эпосы также как любовные бытовые дастаны являются незаменимым источником для изучения хозяйственного быта, традиций, обычаев, материальной, духовной культуры и этногенеза азербайджанского народа. Эти образцы устного народного творчества, отражая условия и образ жизни народа, позволяют выявить забытые элементы культур.

Героические эпосы: «Деде Коргуд», «Кероглы», «Гачаг Неби» и «Гачаг Керем» впервые исследуются этнографически как единое целое. Исследования показывают, что на протяжении столетий семейный быт, семейно-брачные отношения, а также некоторые вопросы, духовной культуры азербайджанского народа, хоть и изменились по форме, содержание их осталось без изменений.

Диссертационная работа состоит из введения, четырех глав, заключения и списка использованной литературы.

Во введении нашли отражение актуальность темы, цели и задачи исследования, определены хронологические рамки, источниковедческая база, степень изученности, научная новизна, научно-практическое значение, апробация и структура диссертации.

В первой главе «Хозяйственная жизнь» исследованы вопросы земледелия, скотоводства, коневодства, верблюдоводства и охоты.

Во второй главе, «Материальная культура и ремесла» исследованы населенные пункты и традиционные жилища, пища и напитки, одежда и украшения, ремесела. Особенно важно то, что автор в своем исследовании утверждает, что территории, где происходят события, описываемые в эпосах, а именно города, сёла и временные населенные пункты, Северного, Южного, Западного Азербайджана, в подавляющем большинстве были заселены азербайджанскими тюрками.

Третья глава «Семья и семейный быт» посвящена исследованию внутрисемейных отношений, брака, свадьбы, воспитания детей, похоронных обрядов, имеющих место в героических эпосах.

Четвертая глава «Духовная культура» посвящена исследованию народного творчества, народных праздников и церемоний, игр и развлечений, религиозных верований.

В «Заключении» научно обоснованы выводы, изложенные в диссертации в связи с традициями в хозяйстве и в быту, в материальной и

духовной культурах, семейно-брачных отношениях.

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
ADU
Docendo discimus
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

**T.N.Quluzade**

## The Azerbaijan Etnography Reflection in Heroic Epos

## SUMMARY

Heroic epics are also invaluable sources for the study the economic life of our people, traditions, material and spiritual culture, family households, ethnogeny as love and domestic epics. Besides the folk patterns reflected life style and living conditions of our people, allows to discover missing or missed cultural elements as a result of changes.

Even Heroic epics had been studied by the literature, linguistics, folklore, history and toponimic perspective, it had been studied little by ethnographic perspective. For the first time, heroic epics like “Kitabi-Dede Korkut”, “Koroghlu”, Kachak Nebi”, “Kachak Kerem” are involved to ethnographic research, these epics are considered as a whole from ethnographic perspective.

The research shows that over hundred of years issues related to the family life of Azerbaijan nation, family-marriage relationships, moral culture as well as material culture have been changed by form but basically have been preserved by content.

The dissertation consists of introduction, four paragraphs, conclusion and list of lused literature.

The introduction gives information about actuality of the topic, research goals and objectives, chronology frame, source database, level of topic research, scientific innovation, theoretical and practical significance, approbation and structure of dissertation.

The first paragraph is called "Farm life". The agrilculture, cattle-breeding, camel-breeding, horse-breeding and hunting related issues were investigated here. In the second paragraph of dissertation called "Material culture and handicraft" the description of settlements and homes, food and beverages, clothing and jewelry in heroes epics were attended, labor matters were investigated, at the same time it was noted that in the areas where the events took places in epics - North, South Azerbaijan, West Azerbaijan and other permanent settlements - cities and villages, as well as in temporary settlements Azerbaijani Turks lived in an absolute majority.

The third paragraph is "Family and family life". The issues related to family relations, marriage and weddings, children nurture, funeral and mourning ceremonies in the heroic epics were investigated in the

paragraph.

The fourth paragraph of the dissertation was dedicated to the "Spiritual culture" issues. In the paragraph folk art, folk festivals and ceremonies, games and entertainment, as well as religious beliefs were involved in the research.

At the end of the dissertation the results obtained on important issues as heroic traditions, economic and domestic, material and spiritual culture, marriage-family relations substantiated.

Kağız formatı: 60/84 16/1
Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

***На правах рукописи***

**ТАРАНА НАСИМИ кызы ГУЛУЗАДЕ**

# ОТРАЖЕНИЕ ЭТНОГРАФИИ АЗЕРБАЙДЖАНА В ГЕРОИЧЕСКИХ ЭПОСАХ

5102.01 – Этнография и этнология

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по истории

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ
ADU
Docendo discimus

**БАКУ – 2016**